UOT 82.91

**Əfsanə İsmayılova**
*dissertant,*
*AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.,26*
e-mail: efsane.ismayilzade@inbox.ru

# MİRZƏ MEHDİ ŞÜKUHİNİN MƏSNƏVİLƏRİNDƏ SOSİAL MÜHİTİN TƏNQİDİNİN FORMA VƏ ÜSULLARI

**Açar sözlər:** *Mirzə Mehdi Şükuhi, məsnəvi, Cənubi Azərbaycan, XIX əsr, sosial mühit.*

**Giriş**

Mirzə Mehdi Şükuhi XIX əsrin ikinci yarısında yaşamış Cənubi Azərbaycanın görkəmli şairlərindən biridir. Şairin bədii irsi Təbrizdə bir neçə dəfə çap olunsa da, ölkəmizdə tam halda işıq üzü görməmiş, onun əsərləri – xüsusilə heca vəznində yazdığı şeirləri müxtəlif mənbələrdə pərakəndə şəkildə nəşr edilmişdir. Şairin məsnəvilərinin nəşri Y.Piriyev və Ə.Hüseyninin adı ilə bağlıdır. Müəlliflər Şükuhinin epik məsnəvilərini "Cənub ulduzları" məcmuəsində çap etdirmiş, Y.Piriyev "XIX əsr Azərbaycan ədəbiyyatında poema janrı" əsərində onların geniş təhlilini vermişdir. Şairin məsnəviləri haqqında ətraflı məlumata Y.Piriyevdən sonra Z.Əsgərlinin tədqiqatında rast gəlirik. M.Müsəddiq isə Şükuhi yaradıcılığı haqqında ən fundamental tədqiqat əsərinin müəllifidir. Burada Şükuhinin həm lirik, həm də epik əsərləri geniş şəkildə təhlil edilmişdir.

**Əsas mətn**

Şükuhinin məsnəvilərinin mövzu dairəsini aşağıdakı kimi ümumiləşdirmək olar: şah üsuli-idarəsinin, istismarçı ictimai təbəqənin tənqidi, yaşadığı mühitin eybəcərliklərinə qarşı etiraz, şəriət adından istifadə edib avam insanların başına oyun açan dindarların ifşası və s. Onun "Gənclik illərində Şükuhinin Marağaya ilk səfəri" adlı məsnəvisi avtobioqrafik səciyyəsi ilə yanaşı, dövrün bir sıra problemlərini öyrənmək baxımından da qiymətlidir. Şairin həyatı haqqında mənbələrdə rast gəlinən məlumatlar məsnəvinin məzmunu ilə tam səsləşir.

Əsərin əsas qəhrəmanı Şükuhidir. Gənc şair Təbrizdə səfalət və çətin güzərandan qurtulub hec olmasa gündəlik ehtiyaclarını ödəmək üçün vətəni tərk etməli olur. Onu Marağadakı ucuzluq, rahat güzəran haqqında eşitdiyi söhbətlər daha çox cəlb edir:

Bir yerdir Mərağə çox ucuzluq,
Nə aclıq olur, nə də susuzluq.
Orda necə çox ucuzdu qaymaq,
Qaymaqdan heç olurmu doymaq? [2, 106]

Səfər zamanı şair bir qədər dincəldikdən sonra yola düşmək istəyir, lakin nə qədər çalışsa da, ulaq yerindən tərpənmir. Şair çox israr edir, ulaq inadından dönmür. Burada ulağın sözləri sanki istismara məruz qalan insanların fəryad səsidir:

Yanıbdı sənin əlində canım,
Min zülm ilə kəsmisən amanım.
Billahi ki,canə gəlmişəm mən,
Həm mərgimə razi olmuşam mən.
Bir gəlməz əcəl ölüb gedəydim,
Qəmdən dəxi qurtulub gedəydim. [2, s.112]

Məsnəvidə Şükuhinin həyatının müəyyən məqamları - eyni zamanda XIX əsrin ikinci yarısında Cənubi Azərbaycanın sosial-siyasi şəraiti, cəmiyyətdəki çatışmazlıqlar və xalqın acınacaqlı vəziyyəti təsvir olunur. Ulaq isə despotizmin hökm sürdüyü zəmanədə əzab-əziyyət, aclıq və səfalət içərisində yaşamaqdansa ölməyi üstün tutan hüquqsuz insanların alleqorik obrazıdır. Gecə Sərdərud adlı əyalətə çatan şairi bir yandan nabələd yollar, digər tərəfdən həramilər tərəfindən soyulmaq qorxusu ciddi narahat edir. Şükuhi yaradıcılığının görkəmli tədqiqatçısı M.Müsəddiq şairin bu qorxusunu tarixi şəraitlə əlaqələndirərək yazır: "Qacar sülaləsinin hakimiyyəti dövrünə xas olan cəhətlərdən biri – yol kəsmək, adam öldürmək, oğurluq və dələduzluğun geniş yayılması idi. Poemada həmin məsələlərə toxunulmuşdur" [5, s. 85]. Əyalətdə insanlar təkcə aclıqla deyil, quldur və oğrularla mübarizə aparmaqdan usanmışlar. Şair nəhayət, bir karvansaraya rast gəlir, bir tikə çörək və isti yatacaq tapacağı üçün sevinir. Lakin onun bu ümidi də boşa çıxır. Şükuhi ölkənin hər yerində səfalətin hökm sürdüyünü, hətta gəlir məqsədilə inşa edilmiş karvansaralarda belə bir tikə çörəyin tapılmadığını ürəkağrısı ilə təsvir edir. Məşəqqət dolu səfər başa çatır, lakin Marağaya çatan qəhrəman burada daha dəhşətli mənzərə ilə üz-üzə gəlir. Şəhərdə vəba xəstəliyi ucbatından hər gün insanlar məhv olur, bir-birinə söykənmiş insan meyitlərini dəfn etmək üçün nə taxta, nə də parça tapılmır. Hər yeri ah-nalə səsləri bürüyüb. Hətta bu şəraitdə öz mənfəətlərini düşünən bəzzaz və tacirlər insanlara astar çitini belə baha qiymətə sataraq varlanmaq həvəsindədirlər. Şükuhi Marağanı tərk edir və əsər şairin əliboş evə dönməsi ilə bitir.

Məsnəvidə Şükuhinin həyatının müəyyən hissəsi öz əksini tapır. Ümumiyyətlə, XIX əsrin ikinci yarısında Cənubi Azərbaycanda iqtisadi-siyasi şəraitin və ictimai vəziyyətin kəskin münasibətin tənqidinə digər cənub şairlərinin də yaradıcılığında rast gəlirik. Bu baxımdan Şükuhinin bu əsəri ilə Xalxalinin "Sələbiyyə"si arasında oxşar cəhətlər mövcuddur. Hər iki əsərin qəhrəmanı aclıq və yoxsulluqla mübarizə aparır, bir qarın çörək üçün öz vətənindən didərgin düşür. Şükuhi bu məsnəvidə, eləcə də "Nəsihəti-Cəlali"də Kəbkin dilindən söylənilən hekayələrin birində həramilərin hətta gündüz vaxtı insanları talan etməsindən bəhs edir. Xalxalinin "Molla və oğru" hekayəsi də demək olar ki, eyni mövzudadır. Xalxalidə Xoruz, Şükuhidə Ulaq əzab-əziyyətə düçar olmuş insanların timsalıdır. Hər iki sənətkar ölkədəki ictimai bərabərsizliyi, insanların maddi şəraitinin eyni olmadığını, despot hakimlərin səfalət içərisində yaşayan xalqın həyatına etdiyi təzyiq və basqını tənqid edir.

Şükuhi xırda ticarətlə məşğul olmuş, tacir və bəzzazların xalqı aldatmasının dəfələrlə şahidi olmuşdur. Bu baxımdan şairin "Bəzzazların öyünməsi" məsnəvisinin qəhrəmanları dövrün real insanlarıdır. Məsnəvi məzmunca "Gənclik illərində Şükuhinin Marağaya ilk səfəri" əsərinin sanki davamıdır. Lakin burada ictimai məzmun daha güclüdür. Şair eyni problemlərə burada da toxunmuş, yalançı, rüşvətxor, ikiüzlü insanların əxlaqını, rəftarını, bir sözlə, mənəvi aləmini, əsərdəki 4 personajın dili ilə oxucuna çatdırmışdır. Cəmi 100 beytdən ibarət bu məsnəvi dərin ictimai məzmuna malikdir. Əsərdə tacirbaşı ilə üç bəzzazın söhbəti zamanı məlum olur ki, rüşvətxorluq, yalançılıq, ikiüzlülük, hiylə və fırıldaqla əhalini aldatmaq onların dördünə də xas olan xüsusiyyətlərdir. Şair surətlərin hər birini onların öz dili ilə ifşa edir.

Birinci bəzzaz şirin dilini işə salıb and-aman edərək öz malını mayasından aşağı satdığına müştəriləri inandırır və beləliklə avam camaatı aldadaraq daha çox müştəri toplayır:

Malımı mən indi çölə atıram,
Odu vəchi ucuz-ucuz satıram.
Eyləyin dustü aşinayə xəbər,
Cümlə əqavamü əqrabəyə xəbər.
Hər kəsin nəqdi var bevəci-həlal,
Xah məcdiyyə, xah imperial. [2, s. 122]

İkinci bəzzazın hekayəti zamanı məlum olur ki, o, ucuz pal-paltar satdığı dükanı qumarxanaya döndərib burada insanlara şərab verib məst etmək, daha sonra onları qumarda udmaq hesabına varlanmışdır. Özündən müştəbeh bəzzazın “qurbanları” içərisində hər təbəqədən insan var:

Orda çox mayələr qoyub xanlar,
Var-yoxundan keçibdü sultanlar.
Çox olub orda daniyü ali,
Bədəni urru, kisəsi xali. [2, s.124]

Üçüncü bəzzaz isə kimdən mal alırsa, mal sahibinin pulunu vermir, onu get-gələ salır. İş gedib məhkəməyə çıxanda isə şər və böhtan hesabına buradan “üzüağ” çıxır. Şair bəzzazın dili ilə avam insanlara kəskin tənqidi mövqedən yanaşır:

Tələbin almağa deyil qadir,
Dirilib qəbrdən gələ Nadir [2, s.125] -

Əsərin digər obrazı tacirbaşı daxili eybəcərliklərinə görə bəzzazlardan heç geri qalmır. Gah vəkillik, gah mollalıq, gah da dəllallıq edərək rüşvət almaqla varlanan tacir dələduz və fırıldaqçılıqda “şöhrət” sahibidir. O, ədalətsiz məhkəmə işçilərinin, yalançı mollaların tipik obrazıdır. Şükuhi tacirin dili ilə mollaların tamahkarlığını rüşvətxorluğunu ifşa edir:

Rüşvə allam hezar şivə ilə,
Keçər əmrim müdam rüşvə ilə. [2, s.126]

Şükuhi zəmanəsinin zülmə, haqsızlığa məruz qalmış insanlarının taleyinə acıyır, cəmiyyət və mühitdən narazılıq edərək , sonda bu problemlər qarşısında aciz olduğunu ürək yanğısı ilə qeyd edir:

Leyk qəlbim yenə fəğanə gəlir,
Bu Şükuhi əlində canə gəlir.
Dərdimə həqq özü olur alim,
Ki, kəsibdir amanımı zalim. [2, s.125]

Şükuhi dövrünün görkəmli satirikidir. Mütərəqqi dünyagörüşünə malik şair demokratik meyil və fikirlərini ifadə etmək, mənfi tipləri satirik qələmlə pisləmək üçün epik şeirin təmsil janrına da müraciət etmiş, məsnəvi şəklində üç təmsil yazmışdır. K.Məmmədov yazır: “Şükuhi və onun müasirləri dinin, mövhumatın bir tərəfdən xalq kütlələrinin mənəvi əsarətdə, ətalətdə saxladığını göstərir, digər tərəfdən də öz murdar əxlaqları ilə köhnə cəmiyyətin “məstedici” xəstəliyini daha da şiddətləndirən molla, qazı və s. tüfeylilərin çapqınçılığını, eli-obanı talayıb, xalqı “ac yurdda” qoymalarını qələmə alır, ifşa edirdilər” [4, s. 20]. M.Müsəddiq satirik şeirlərinə görə şairin daim din xadimləri tərəfindən təzyiqə məruz qaldığını bildirir, hətta şairin Marağadan getməsini bu səbəblə əlaqələndirir: “Hələ ilk şeirlərindən mövhumat, cəhalət, zülm və nadanlıq əleyhinə mübarizə aparan Şükuhi yaşadığı cəmiyyətin eyib və çirkinliklərini göstərdiyi üçün dindarlar onu babi, dinsiz və kafir adlandırmışlar” [5, s. 37]. Şükuhinin məşhur “Meymuniyyə” məsnəvisi də mövhumat əleyhinə yazılmışdır. Sadə bir əhvalat üzərində qurulmuş təmsildə 3 surət iştirak edir. Qazi-Meymun və şikayətçi-iki pişik. Meymun şəriət hökmlərindən öz mənafeyi üçün istifadə edən fırıldaqçı və acgöz dindarların alleqorik obrazıdır. Qazinin qar kimi ağappaq əmmaməsi, tərtəmiz geyimi, Həcc ziyarəti avam xalq kütləsini guya onun əsl dindar olmasına inandırır. Əslində isə qazi rüşvətxor, acgöz, yalançı və ikiüzlüdür. İki pişik əllərinə keçirdikləri bir parça pendiri bölə bilmədiyi üçün Meymunun yanına gəlir. Qazi pendiri iki yerə bölüb tərəzinin gözünə qoyur və hər dəfə dişləyərək guya onları bərabərləşdirməyə çalışır. Pendirin getdikcə kiçildiyini görən pişiklər “bu övzai-şəriətdən peşiman”olur, yerdə qalan hissəsi üçün qaziyə yalvarırlar. Bu isə Meymunu qəzəbləndirir, pişikləri inandırmağa çalışır ki, bölgünün sona qədər çatdırılmaması guya şəriətə ziddir. Bu zaman onun əsl siması açılır:

Mənəm qazi, nə bir rəhzən, nə bir düzd,
Rəvadır mən olam həmmali-bimüzd?
Mənə çüzvi- həqiri çox görürsüz?
Bu bir zərrə pəniri çox görürsüz? [2, s.131]

Beləlikə, acgöz pişiklər əliboş halda kor-peşiman çıxıb gedirlər.

Təmsillərdə heyvanların xüsusiyyətlərini xarakterizə edən Flora Kərimova yazır: "Azərbaycan təmsillərində... ev heyvanları bəzən tənqid hədəfinə çevrililər. Müəllif onlardakı avamlıq, nadanlıq, qorxaqlıq kimi xüsusiyyətləri tənqid etməklə rəğbət bəslədiyi qəhrəmanları ictimai fəaliyyət meydanına səsləyir" [3, s. 170]. "Meymuniyyə"də meymunla yanaşı, sadəlövh pişiklər də tənqid hədəfidir. Pişiklərin ac qalmasının səbəbi pendiri bölə bilməmələri, fırıldaqçı qaziyə aldanmalarıdır. "Şair bu aldanışa təəssüflənərək, çağdaşlarını biliyə, maarifə, həqiqəti yalandan, səmimiyyəti hiylədən, yaxşını yamandan ayırmağa çağırır" [1, s.749].

"Meymuniyyə"nin süjetinə dünya xalqlarının folklorunda da rast gəlirik. Belə ki, rus folklorunda "İki ayı balası" və macar şifahi ədəbiyyatında yayılmış "İki acgöz ayı balaları" nağılları da eyni mövzudadır. Lakin burada qazi funksiyasını daşıyan meymun deyil, tülküdür. Hər iki nağılda tülkü sonda ayı balalarına az da olsa iki tikə pendir saxlayır. Ağlayan ayılar pendirin kiçik olmasına etiraz etsələr də, tülkü cavabında: -Nə olsun ki, kiçikdir, əvəzində tən yarıdır-deyə cavab verir (7). Məsnəvidəki pişiklər ayı balaları qədər acgöz deyil, avam və sadəlövhdür. Meymun isə tülküdən daha hiyləgər, acgöz və insafsızdır. Fikrimizcə, Şükuhi bilərəkdən qazi olaraq tülkünün əvəzinə xarici görünüşcə olduqca çirkin meymun obrazından istifadə etmişdir ki, bu, da onun fırıldaqçı şəriət xadimlərinə olan mənfi münasibətini bir daha aydınlaşdırır.

Şükuhinin digər təmsilinə Y.Piriyev və Ə.Hüseyni "Qurdun çobanlığı" adını vermişlər. Folklorda geniş yayılmış acgöz, yırtıcı qurd əsərin əsas alleqorik obrazıdır. Gecələr kəndə hücum edərək, tövlə və hinlərə soxularaq heyvanları parçalayan qurdu kəndlilər tələ qurub tuturlar. Kənd sakinlərinin bir qismi onun yandırılmasını, dəyirman daşı ilə üz-gözünün əzilməsini, digər qismi isə rizə-rizə doğranmasını və ya tüfənglə öldürülməsini məsləhət görürlər. Bəzi cahil insanlar isə qurdun kənd sürüsünə çoban təyin olunmasını tələb edir:

Çünki binəfdir bunun dəfi,
Qalsa, artıq yetər bizə nəfi.
Əvvələn, bizdən istəməz dəyənək,
Nə çıraq, nə çörək, nə bir kəpənək. [2, s.133]

Məşvərət zamanı guya oradan keçən Şükuhi insanların sadəlövhlüyünə acıyır:

Söylədi: gürgdən şəban olmaz,
Xəsmi-bədzad mehriban olmaz. [2, s.133]-

-deyərək canavarın öldürülməsini məsləhət görərək bu mənasız mübahisəyə son qoyur. Təmsildə qurd şah idarə üsulunda yüksək rütbəli məmurları, istismarçı qüvvələri təmsil edir. Şairin fikrincə, onlardan kömək ummaq, mərhəmət gözləmək ağılsızlıqdır. Şükuhi burada "qoyunu qurda həvalə edən" insanları tənqid edir. Şairin fikrincə, qurdun çoban olmasının tərəfdarları xalqın tərəqqisinə mane olanlardır. M.Müsəddiqin sözləri ilə desək, "Şükuhi azad yaşamaq və ədalətli quruluş yaratmaq uğrunda kəndliləri birləşməyə, ağıllı və fərasətli hərəkət etməyə çağırır və bilir ki, ölkədəki mövcud vəziyyəti dəyişdirmək, canavarlardan və onları müdafiə edən xaricilərdən yaxa qurtarmaq üçün xalqın birliyi zəruridir" [5, s.89].

Şükuhinin məsnəvilərindən biri didaktik mövzuda olub oğlu Cəlala həsr edilmişdir. "Nəsihəti-Cəlali" adlanan bu əsərin əsas süjet xəttini Şahbazla (şahin) Kəbkin (kəklik) münazirəsi təşkil edir. Şahin kəkliklə dost olmaq istəyir, lakin kəklik razılaşmır, onu bu fikirdən daşındırmaq istəyir. Kəbkin fikrincə, şahin kimi qüdrətli bir quşun kəkliklə dostluğu ağılsızlıqdır. Lakin şahin fikrində qətiyyətli olduğunu söyləyir, bildirir ki, onu Kəbkin yanına

gətirən eşqdir. Kəklik nə qədər israr etsə də, şahin öz eşqində qərarlı olduğunu, bu sevdadan əl çəkməyəcəyini bildirir. Şahbaz onu sevəcəyinə, hər kəsin ona itaət edəcəyinə söz verir:Sənə eylər itaət xəsmi-sərkəş,

Deyə bilməz: yerin kəcdir, düz əyləş.
Biri baş əyməsə verrəm cəzasin,
Biri kəc baxsa, yandırram atasın! [2, s.104]

Bu zaman kəkliyin nəql etdiyi əhvalat ictimai məzmununa görə diqqəti çəkir. Əhvalatda səfərə çıxan ər-arvadın yolda bir quldur tərəfindən soyularaq təcavüzə məruz qalmasından bəhs edilir. Quldur hətta onların əynindəki paltara belə tamah salır, ər-arvadı “üryan” qoyaraq oradan uzaqlaşır. Şükuhi öz yaşadığı mühitin acı mənzərəsini təsvir edir, quldurluğun adi hal aldığı zəmanəyə burada da eyham vurur.

Məsnəvidə şahin zalım hökmdarların simvolik obrazıdır. Onun öz mövqeyinə arxalanıb lovğalıq etməsi dövrün özündən müştəbeh şahlarını yada salır. Kəklik isə çarəsiz, ixtiyarsız rəiyyəti təmsil edir. M.Müsəddiq yazır: “Kəlilə və Dimnə” üslubunda yazılmış bu alleqorik əsərdə mülkədar, xan və şahlarla aşağı təbəqələr: fəhlə, kəndli, xırda burjuaziya, bir sözlə, istismarçılarla istismar olunanlar arasında mövcud münasibətdən danışılır. İstismarçı sinif Şahin, istismar olunan zəhmətkeş xalq isə Kəkliyin simasında verilmişdir” [5, s.89]. Şükuhi əsərin mövzusunu birtərəfli şəkildə bitirir. Şahinin vədlərinə Kəklik cavab vermir və obrazların aqibəti qaranlıq qalır. Şair kəkliyin cavabını oxucunun ixtiyarına verərək, cəmiyyətdəki ziddiyyətlər zamanı zalımların həmişə üstün olmasına sanki etiraz edir.

Göründüyü kimi, məsnəvi cəmi bir məkan daxilində iki alleqorik obraz arasında baş verən dialoq üzərində qurulmuşdur. Əsər gənc nəsildə yüksək əxlaqi keyfiyyətlər aşılamaq məsqədilə yazılsa da, digər didaktik əsərlərdən fərqli olaraq şair məsnəvinin yalnız son iki beytində oğluna müraciət edir:

Gəl, ey fərzəndi-dilbəndim, Cəlali,
Bu piri-salxurdun xurd Sali.
Şərifin eyləmə bir zuri-pəncə,
Düşərsən aqibət min dərdi-rəncə. [2, s.104]

Bu baxımdan “Nəsihəti-Cəlali”nin adı ilə məzmunu arasında uyğunsuzluq da nəzərdən yayınmır. Əsərin standart təmsil adlarına uyğun olaraq “Şahbaz və Kəbk” adlanması fikrimizcə, daha doğru olardı. Məsnəvi öz forma və məzmun keyfiyyətlərinə görə XIX əsrin digər təmsillərindən heç də geri qalmır, əksinə, öz orijinal keyfiyyətlərinə görə olduqca qiymətli sayılır.

**Nəticə**

Şükuhinin əsərlərinin hər birində ictimai mühitə qarşı kiçik də olsa üsyan səsi vardır. Şair yaşadığı dövrün sosial problemlərini bədii əsərlərində təzahür etdirməklə yanaşı, bu problem və ziddiyyətlərə özünün ictimai-fəlsəfi baxışlarını da ifadə edir. Bu baxımdan şairin məsnəvilərinin hər biri orijinal bir sənət nümunəsidir.

**Ədəbiyyat :**

1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. C.4. Bakı: Elm, 2011, 838 s.
2. Cənub ulduzları (tərtib edən, nəşrə hazırlayan və ön sözün müəllifləri Ə.Hüseyni, Y.Piriyev). Bakı: Yazıçı, 1984, 271 s.
3. Kərimova F. Azərbaycan təmsili. Gəncə: Təhsil, 2003, 220 s.
4. Məmmədov K. XIX əsr Azərbaycan şeirində satira. Bakı: Elm, 1975, 274 s.
5. M.Müsəddiq. Mirzə Mehdi Şükuhi: Həyat və yaradıcılığı. Bakı: Yazıçı, 1988, 126 s.
6. Piriyev Y. XIX əsr Azərbaycan ədəbiyyatında poema janrı. Bakı: Yazıçı, 1988, 182 s.
7. http://portal.azertag.az/az/node/5601

***Афсана Исмаилова***

## ФОРМЫ И МЕТОДЫ КРИТИКИ СОЦИАЛЬНОЙ СРЕДЫ В МЕСНЕВИ МИРЗЫ МЕХДИ ШУКУХИ

**Резюме**

Мирза Мехти Шукухи - один из известных представителей литературы Южного Азербайджана второй половины XIX века. Свои месневи он создавал под воздействием усиливающегося просветительского движения в Южном Азербайджане. В его сатирических, аллегорических стихах острой критике подвергаются фанатизм, деспотизм иранских правителей, выражается глубокое сочувствие тяжелой судьбе народных масс. Литературная деятельность Шукухи, несмотря на сильный назидательный стиль, дала мощный импульс развитию поэзии в Южном Азербайджане, стимулировав формирование просветительской сатиры, сатирического поэтического течения.

**Ключевые слова:** Мирза Мехти Шукухи, маснави (двустишие), Южный Азербайджан, социальная среда.

***Afsana Ismailova***

## THE FORMS AND METHODS OF THE CRITICISM OF SOCIAL ENVIRONMENTS IN MIRZA MEHDI SHUKUHI'S MESNEVIES

**Summary**

Mirza Mehdi Shukuhi is one of the most prominent representatives of Southern Azerbaijani literature in the second half of the XIX century. He created his mesnevis under the influence of an enlightenment movement growing in Southern Azerbaijan. In his satirical, allegorical poems, the fanaticism and despotism of Iranian rulers are sharply criticized, and deep sympathy is expressed for the sorrowful life of the people. Despite the strong edifying style, the literary activity of Shukuhi provided a powerful impetus to the development of the poetry in Southern Azerbaijan, stimulating the formation of enlightening satire, a satirical poetic movement.

**Key words:** *Mirza Mehdi Shukuhi, mesnevi, Southern Azerbaijan, XIX century, social environment.*

Redaksiyaya daxil olma tarixi: 18.12.2019
Çapa qəbul olunma tarixi: 27.12.2019

Filologiya üzrə elmlər doktoru **Paşa Kərimov**
tərəfindən çapa tövsiyə olunmuşdur.